*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 mart 2017-ci il № 21 (2138) Qiymәti 25 qәpik


## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Əziz həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı və xoş əhval-ruhiyyə arzulayıram.

Novruz bayramı ulu babalarımızın zəngin mənəvi aləmini dolğun təcəssüm etdirir. Ən qədim təsəvvürləri qoruyub saxlamış bu bayram təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsidir. Odlar diyarına onun hər gəlişi min illərin ənənəsinə uyğun, rəngarəng mərasimlər və el şənlikləri ilə müşayiət olunmuşdur. Milli özünüdərkin təşəkkülündə müstəsna mövqeyə malik Novruz ənənələri çoxəsrlik tarixi keçmişinə daim ehtiramla yanaşan xalqımızın dünya mədəniyyətinə misilsiz töhfələrindəndir. Həmin ənənələrin müqəddəs ərməğan kimi həmişə uca tutulması və layiqincə yaşadılaraq gələcək nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Bahar bayramı dövlət müstəqilliyimizin nailiyyəti olaraq rəsmi statuslu əsl ümumxalq bayramı səviyyəsində ölkəmizin bütün guşələrində qeyd edilir. Qloballaşma dalğasının geniş vüsət aldığı və dünyanı sürətli dəyişikliklərə məruz qoyduğu bir vaxtda o, tükənməz mənəvi gücü sayəsində dini-mənəvi dəyərlərimizə, tarixi-mədəni irsimizə bağlılığımızın təntənəsinə çevrilmişdir. Yaz bayramı yeniləşdirici ruhu və ılıq nəfəsiylə insanlar arasında səmimi münasibətlərə yol açır, dostluq, mərhəmət və bərabərlik duyğularını gücləndirir, cəmiyyətin inkişafının ahəngdarlığını təmin edir. Onda gələcəyə inam aşılamaq və könüllərdə ülvi duyğular oyandırıb xeyirxahlığa sövq etmək qüdrəti vardır. Ən yüksək dəyərləri özündə topladığı üçün də belə bir mənəviyyat xəzinəsi bəşəriyyətin mədəni irs nümunələri siyahısında yer almışdır.

Mən torpaqlarımızın müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə bayram təbriklərimi yetirirəm. Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman övladların unudulmaz xatirəsini bir daha ehtiramla yad edərək onlara Allahdan rəhmət, yaxınlarına səbr diləyirəm.

Dünya azərbaycanlılarının həmrəyliyinin rəmzi Novruz bayramını xaricdə yaşayan soydaşlarımızın milli məfkurə işığında bizimlə birgə qeyd etmələri onlarda yurdumuza bağlılıq hisslərini gücləndirir.

Arzu edirəm ki, öz gəlişiylə bu gözəl bayram hər evə, hər ocağa bol ruzi-bərəkət gətirsin və hamınıza yeni sevinclər bəxş eləsin.

Xalqımızın əziz Novruz bayramı mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 mart 2017-ci il.

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib



*Martın 18-də Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Novruz şənliyində iştirak ediblər. Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər. Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu. Bahar qız dövlətimizin başçısına səməni təqdim etdi. İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar. Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı. Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.*

*Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.*

- Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına əmin-amanlıq, yeni uğurlar arzulayıram. Novruz bayramı bizim sevimli bayramımızdır. Əsrlər boyu xalqımız bu bayramı qeyd edir.

Azərbaycan dövləti möhkəm milli-mənəvi dayaqlar üzərində qurulubdur. Biz öz mədəniyyətimizi, incəsənətimizi, ana dilimizi, bayramlarımızı qoruyuruq, yaşadırıq. İyirmi beş illik müstəqillik dövrü onu göstərir ki, ancaq milli köklər üzərində qurulmuş dövlətlər uğur qazana bilər və o dövlətlərin gələcəyi var. Azərbaycan dəyərləri, milli-mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Şadam ki, gənc nəsil də bu ruhda, vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə alır və bu gün Vətəni sevən hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Vətəni ilə fəxr edir.

Azərbaycanda əldə edilmiş uğurlar ölkəmizi gücləndirir, gələcəyə nikbinliklə baxmaq üçün əsas verir, eyni zamanda, dünya miqyasında qiymətləndirilir. Daxili vəziyyətimiz sabitdir. Bu sabitliyin qarantı, təminatçısı Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və sabitliyin əsas amili də məhz budur. Hər şey müqayisədə ölçülür.

Bu gün regionumuzda, dünyada yaşanan xoşagəlməz hadisələr, qanlı toqquşmalar, müharibələr, əlbəttə ki, bizi çox narahat edir. Çünki biz təcridolunmuş vəziyyətdə yaşamırıq, bizim bölgəmizdə əgər vəziyyət gərginləşirsə, risklər artırsa, əlbəttə ki, bizə də bunun mənfi təsiri ola bilər. Ona görə bizim əsas vəzifəmiz ölkəmizi, xalqımızı mövcud olan və gələcək risklərdən qorumaqdır və biz buna nail oluruq. Ona görə bu gün ölkəmizdə yaşanan sabitlik, əmin-amanlıq, vətəndaş birliyi, həmrəyliyi, əlbəttə ki, bizim böyük sərvətimizdir və biz bunu qoruyuruq. Yenə də qeyd etmək istəyirəm, bunu ancaq xalq-iqtidar birliyi qoruya bilər.

Azərbaycanda təhlükəsizlik təmin edilib, xalqımız rahat şəraitdə, təhlükəsizlik şəraitində yaşayır. Qurub-yaratmaq üçün bütün imkanlar var. İndiki dövrdə həm bölgəmizdə, həm Avrasiya qitəsində vəziyyət, əfsuslar olsun ki, gərginləşib. Biz, əlbəttə ki, ölkəmizdə mövcud olan təhlükəsizliyi daha da möhkəmləndirməliyik. Azərbaycanda daxili risklər, təhlükələr demək olar ki, yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq. Biz özümüzü həm fiziki risklərdən, həm mümkün olan ideoloji risklərdən qoruyuruq.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

(Əvvəli 1-ci səhifədə)



Azərbaycan xalqı bu 25 il ərzində açıq-aydın görür ki, bizim siyasətimiz ən düzgün siyasətdir. Biz öz taleyimizin sahibiyik. Biz siyasətimizi özümüz müəyyən edirik. Biz hər hansı bir kənar təsirə davam gətirə bilirik və yaxın tarix bunu göstəribdir. Eyni zamanda, yaxın tarix onu da göstərib ki, biz əgər hansısa kənar qüvvənin istəyi, diktəsi ilə hərəkət etsəydik, böyük problemlərlə üzləşə bilərdik.

Mən dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bizim müstəqil siyasətimiz qürur mənbəyimizdir. Bu, onu göstərir ki, Azərbaycan xalqı öz gələcəyini özü müəyyən edir. Eyni zamanda, müstəqil siyasətimiz bizi mövcud olan risklərdən də qoruyur. Hələ 5-6 il bundan əvvəl yaxın bölgələrdə vəziyyət tam başqa idi. Heç kim təsəvvür edə bilməzdi ki, bu bölgələrdə münaqişə, müharibə ocaqları yaranacaq, yüz minlərlə insan həlak olacaq, milyonlarla insan qaçqın-köçkün vəziyyətinə düşəcək. Ancaq bütün bunlar artıq reallıqdır. Nəyə görə bu, baş verdi?! Əlbəttə ki, xarici müdaxiləyə görə. Biz bunu bilirik və mən həmişə bütün bu məsələlərlə bağlı öz mövqeyimi bildirmişəm. Eyni zamanda, o ölkələr müstəqil həyata hazır deyildilər. O ölkələrdə xalq-iqtidar birliyi yox idi. O ölkələrdə kütləvi narazılıq var idi. Ona görə belə acınacaqlı, bədbəxt hadisələr baş verdi. Bütün bunlar bizim gözümüzün önündə baş verir və bir daha həm xalqımıza, həm bütün dünyaya göstərir ki, bu gün Azərbaycan, doğrudan da, dünya miqyasında öz siyasəti ilə fərqlənən və bir çox ölkələr üçün nümunəyə çevrilən bir ölkədir.

Bizim beynəlxalq mövqelərimiz də möhkəmlənir. Yanvar ayının ortalarından bu günə qədər mənim xarici səfərlərimin coğrafiyasına nəzər salsaq görərik ki, Azərbaycan çoxşaxəli və uğurlu xarici siyasət aparır. Son iki ay ərzində mən 7 dəfə xaricə səfər etmişəm. Azərbaycan dünyanın aparıcı, ən mötəbər Davos Forumunda və Münxen Konfransında ləyaqətlə təmsil olunub. Dünyanın həm biznes, həm də siyasi elitasından bizə olan hörmət göz qabağındadır. Avropa Komissiyasına mənim uğurlu səfərim olubdur. Bu səfər nəticəsində Avropa Komissiyası ilə Azərbaycan arasında yeni sazişlə bağlı danışıqlara start verildi. Onu da qeyd etməliyəm ki, bu da nadir hadisədir. Bu danışıqların aparılması üçün layihəni Azərbaycan təqdim edib və bu layihə qəbul edilibdir. Ümid edirəm ki, yaxın zamanlarda danışıqlarda fəal proses başlanacaq və tezliklə bu mühüm saziş bağlanacaq.

Qətərə, Pakistana, İran İslam Respublikasına mənim rəsmi səfərlərim olubdur. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz möhkəmlənir. Xalqımız yaxşı bilir ki, Azərbaycan İslam həmrəyliyi üçün çox böyük işlər görür, çox böyük töhfələr verir. Bunu İslam aləmi qiymətləndirir. İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri dəfələrlə bizim siyasətimizə ən yüksək qiymət vermişlər. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşündə fəal iştirak edib. Biz son 5 ildə bu təşkilata uğurlu sədrlik etmişik. Bu yaxınlarda Fransaya rəsmi səfərim də çox uğurlu keçdi. Fransa dünyanın aparıcı ölkələrindən biridir və mənim səfərimi izləyən vətəndaşlar gördülər ki, ölkəmizə çox böyük hörmət, çox böyük maraq var. Biz həm siyasi, həm iqtisadi, həm enerji sahələrində və digər sahələrdə uğurlu əməkdaşlıq edirik. Onu da qeyd etməliyəm, Azərbaycan postsovet məkanında yeganə ölkədir ki, Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb.

Xarici siyasətimizin və ümumiyyətlə, siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, bu məsələnin həlli istiqamətində ciddi irəliləyiş yoxdur. Mən bunun səbəbləri haqqında dəfələrlə bildirmişəm. Ermənistan sülh istəmir, status-kvonu saxlamaq istəyir, işğal edilmiş torpaqlardan çıxmaq istəmir. Ona görə biz və beynəlxalq ictimaiyyət, vasitəçilər onları məcbur etməlidirlər. Bunun başqa yolu yoxdur. Çünki indi Ermənistan danışıqları boykot etməyə çalışır, özünü təcrid vəziyyətinə salır. Vasitəçilər, Minsk Qrupunun həmsədr ölkələri artıq açıq bəyan edirlər ki, tezliklə substantiv, yəni, mənalı danışıqlar bərpa edilməlidir. Ona görə hesab edirəm ki, Ermənistan işğal edilmiş torpaqları işğal altında saxlaya bilməyəcəyini nə qədər tez anlasa, bu, onlar üçün də o qədər yaxşı olacaq. Biz bu vəziyyətlə barışmayacağıq. Biz gücümüzü artırırıq. Hərbi gücümüzü, siyasi gücümüzü, beynəlxalq mövqelərimizi möhkəmləndiririk.

Bu günlərdə Bakıda V Qlobal Forum keçirilir. Forumda 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçıları iştirak edirlər. Azərbaycan nəinki bölgədə, artıq dünya miqyasında önəmli ölkəyə çevrilib. Ermənistan isə bütün ümidlərini itirmiş, depressiyada yaşayan bir ölkədir və bunun səbəbi Ermənistanı qanunsuz yollarla zəbt etmiş kriminal xunta rejimidir. Erməni xalqı üçün ən böyük təhlükə elə Ermənistanın indiki rəhbərliyidir.

Biz öz səylərimizi davam etdirəcəyik. Dəfələrlə bildirmişəm, bir daha demək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Bölgədə vəziyyət bizim xeyrimizə işləyir. İqtisadi, hərbi potensial da aydındır ki, bizim tərəfimizdədir. Keçən ilin aprel hadisələri bunu bir daha göstərdi. Ona görə biz daha da güclü olmalıyıq, daha da güclənməliyik və bunu edirik.

Ermənistan isə xarici yardımsız yaşaya bilmir. Əgər aprel döyüşlərinə qədər onlar öz mifoloji fəaliyyətlərində müəyyən dərəcədə uğurlar qazana biliblərsə, aprel döyüşləri onların təbliğatına ciddi zərbə vurub, erməni cəmiyyətini sarsıdıb. O sarsıntının fəsadları bu günə qədər orada hiss olunur. Aprel hadisələri orada dərin hərbi və siyasi böhrana gətirib çıxarıb. Bu, hələ qısamüddətli döyüşlər idi. Ona görə onlar düzgün nəticə çıxarmalıdırlar və bilməlidirlər ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Nəyin bahasına olursa-olsun, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu etmək üçün, əlbəttə ki, biz uğurlu siyasət aparırıq, hər gün, hər il biz o günü yaxınlaşdırırıq. Bilirsiniz ki, Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaq.

Son illərin beynəlxalq münasibətləri göstərir ki, əfsuslar olsun, beynəlxalq təşkilatlar artıq o qədər də ciddi təsirə malik deyillər. Böyük dövlətlər isə öz maraqlarını güdürlər, beynəlxalq hüququ istədikləri kimi təhrif edirlər. Belə olan halda güc əsas amildir və biz bunu bilirik.

İqtisadi vəziyyətimiz yaxşılaşır. Keçən il, - mən ötən il burada demişdim, - iqtisadi sabitləşmə, dərin iqtisadi islahatlar ili idi. Bu islahatlar öz bəhrəsini verməyə başlamışdır. Bu il isə artıq inkişaf ilidir. İlin iki ayının göstəriciləri bunu təsdiqləyir. Böyük olmasa da, iqtisadi artım var. Ümumi daxili məhsul 0,4 faiz artıbdır. Qeyri-neft sənayemiz isə 5 faiz, kənd təsərrüfatı 3 faizdən çox artıb. Yəni, bu, iqtisadi inkişafımızın əsas göstəriciləridir. Neft-qaz ixrac edən bir çox başqa ölkələrdən fərqli olaraq, keçən il biz öz valyuta ehtiyatlarımızı qoruya bilmişik, xərcləməmişik. Halbuki, xərcləyə bilərdik. Ancaq biz ölkəmizin uzunmüddətli maraqları haqqında düşünürük. Biz hər il valyuta ehtiyatlarımızı artırmalıyıq. Buna nail oluruq. Bu gün bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfədən çox artıqdır. Bəlkə də dünya miqyasında çox az ölkə tapılar ki, bu göstərici bu səviyyədə olsun.

Bizim iqtisadi inkişafımız Davos Dünya İqtisadi Forumu tərəfindən də yüksək qiymətləndirilib. Bu il ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycan 37-ci yerə layiq görülüb. Keçən il biz 40-cı yerdə idik. Yəni, bu, onu göstərir ki, hətta neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, Dünya İqtisadi Forumu bizim iqtisadiyyatımızı daha da yüksək pilləyə qaldırıb.

Əlbəttə ki, dünya miqyasında iqtisadi rəqabətliliyə görə, ən inkişaf etmiş 40 ölkə sırasında olmağımız uğurlu iqtisadi siyasətimizi əks etdirir. Onu göstərir ki, biz bu uğuru təkcə neft, qaz hesabına deyil, ciddi şaxələndirmə və islahatlar hesabına əldə etmişik.

Davos Forumunun ikinci önəmli reytinqi inkişafda olan ölkələrin inkişaf səviyyəsidir. Biz burada da bütün inkişaf edən ölkələr arasında birinci-ikinci yerləri bölüşürük. Bu, bizim siyasətimizə, iqtisadi siyasətimizə verilən ən gözəl qiymətdir.

Əminəm ki, bu il iqtisadi inkişaf davam etdiriləcək. Çox böyük planlarımız var. İnvestisiya proqramı real sektorun inkişafına xidmət göstərəcək. Bu il kənd təsərrüfatında il ərzində 150 min hektardan çox torpağa su veriləcək. Bu, 100 minlərlə iş yerinin yaradılması deməkdir. Bu, kənd təsərrüfatının və ixracın artırılması deməkdir. Biz ilin iki ayında ancaq dövlət sektorunda 40 mindən çox yeni iş yeri yaratmışıq. Nəyə görə? Ona görə ki, işsizlik artmasın. Çünki keçən il dövlət investisiyaları azalmışdır, xüsusilə tikinti sektorunda. Bəzi vətəndaşlar işlərini itirmişlər. Bank sektorunda da problemlər yaşandı. Bəzi banklar bağlandı, vətəndaşlar işlərini itirdilər. Ona görə mən biznes qurumlarına da çağırış etdim ki, hər bir şirkət heç olmasa bir-iki nəfəri işə götürsün. Bəlkə bu, onlara o qədər də lazım deyil, ancaq biznes də sosial məsuliyyətini dərk etməlidir. Bizim dövlət şirkətlərimiz və yerli icra orqanları üçün xüsusi büdcə ayrılıb. İndi 40 mindən çox insan ictimai işlərə və digər təmir-tikinti işlərinə cəlb edilib. Ona görə, əminəm ki, bu il Azərbaycan öz iqtisadi inkişafını davam etdirəcək.

Sosial sahədə də böyük planlarımız var. Bu il ənənəvi olaraq beş milyon insan pulsuz diaqnostikadan, müayinədən keçir. Hesab edirəm ki, bu da dünya miqyasında nadir təşəbbüsdür. Artıq bunu etmək üçün hər cür imkan var. Hər bir rayonda müasir tibb müəssisələri yaradılıb. Son illər ərzində 600-dən çox tibb ocağı təmir olunub və tikilib.

Biz bu il İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Bu, növbəti dəfə ölkəmizin potensialını göstərəcək və eyni zamanda, İslam həmrəyliyinə də növbəti töhfəmiz olacaq. Çünki buna böyük ehtiyac var. Bu Oyunlar təkcə idman yarışı deyil. Bu Oyunlar bütün İslam aləmini bir araya gətirəcək. Əfsuslar olsun ki, bəzi müsəlman ölkələri arasında münasibətlər, yumşaq desək, lazımi səviyyədə deyil. Azərbaycan isə çalışır ki, müsəlman aləmində birlik möhkəmlənsin, güclənsin. Bu, bizim ailəmizdir. Biz bu ailənin üzvüyük. Ona görə, biz istəyirik ki, bu ailədə əmin-amanlıq, inkişaf olsun, müharibələrə, münaqişələrə son qoyulsun.

Yəni, biz uğurlu siyasətimizlə ölkəmizi gücləndiririk. Əgər bütün tariximizi götürsək, Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bizim uğurlu siyasətimiz, regional təşəbbüslər, enerji, nəqliyyat layihələri geniş mənada beynəlxalq əməkdaşlığı formalaşdırır. Biz beynəlxalq əməkdaşlığa öz fəlsəfəmizi gətirmişik. Beynəlxalq əməkdaşlıq hər bir iştirakçı üçün uğurlu olmalıdır. Bu, zorla ola bilməz. Heç bir ölkəni zorla, məcburən hansısa təşəbbüsə cəlb etmək olmaz. Bunun heç bir effekti olmayacaq. Ölkələr bəlkə buna müqavimət göstərə bilmirlər, ancaq daxilən narahat olacaqlar ki, onları nəyəsə məcbur edirlər. Ona görə bizim beynəlxalq əməkdaşlıq doktrinamız əməkdaşlıq və qarşılıqlı dəstək üzərində qurulub. Məhz buna görə biz Cənub Qaz Dəhlizi kimi həm maliyyə, həm texniki, həm siyasi cəhətdən mürəkkəb olan bir layihəni icra edirik. Üçüncü dəfədir ki, Bakıda Məşvərət Şurası keçirilib və iştirak edən bütün ölkələr öz mənfəət payını alacaqlar. Biz bir çox layihələri icra etmişik və vəsait də xərcləmişik. Əlbəttə, bu vəsait həm vəsait olaraq, həm siyasi divident kimi qayıdacaq, həm də ki, bölgədə yeni əməkdaşlıq mühiti yaranmışdır.

Azərbaycan bütün bu önəmli nəqliyyat və enerji layihələrinin təşəbbüskarıdır. Vaxt keçdikcə dünyada ölkəmiz haqqında daha da dolğun məlumat yayılır. Bizə böhtan, şər atan, bizə pis gözlə baxan qüvvələr yavaş-yavaş sıradan çıxırlar. Artıq onların bir çoxu siyasi səhnədən kənarlaşdırılıb. İndi dünyada yeni inkişaf dinamikası yaranır. Azərbaycan müasir, müstəqil, inkişafda olan ölkə kimi dünyada daha çox tanınır.

Əziz dostlar, mən bu gözəl bayram ərəfəsində hər bir Azərbaycan ailəsinə uğurlar, cansağlığı arzulamaq istəyirəm. Arzu edirəm ki, ölkəmizdə həmişə sülh, inkişaf olsun, xalqımız rahat, firavan yaşasın. Bayramınız mübarək olsun. Sağ olun!

## Novruz bayramı münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə

# Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı və xoş əhval-ruhiyyə arzulayıram.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd olunan Novruz baharın gəlişinin, təbiətin oyanışının rəmzidir.

Dövlət müstəqilliyimizin nailiyyəti kimi, xalqımızın əsrlərlə qoruyub saxladığı adət-ənənələrini, milli-mənəvi dəyərlərini özündə əks etdirən Novruz bayramı bu gün əsl ümumxalq və dövlət bayramı səviyyəsində ölkəmizin bütün bölgələrində böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu siyasət nəticəsində müstəqil Azərbaycan Respublikasında vətəndaş birliyi əldə olunub, ölkəmiz dünya dövlətləri arasında layiqli yerini tutub. Bu gün ölkə iqtisadiyyatının fasiləsiz inkişafı təmin olunub, dövlətçilik ənənələrimiz daha da möhkəmlənib, respublikamızın müdafiə qüdrətinin artırılması sahəsində böyük nailiyyətlər əldə edilib.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və ictimai-siyasi hazırlıqda yeni uğurlar əldə edəcək, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə ərazi bütövlüyümüz bərpa olunacaqdır.

Ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda canlarından keçən şəhidlərimizin unudulmaz xatirəsini hər zaman olduğu kimi bayram ərəfəsində də ehtiramla yad edirik. Şəhid ailələrini və torpaqlarımızın müdafiəsində mətinliklə dayanaraq düşmənlə savaşda sağlamlığını itirən döyüşçülərimizi də bayram münasibətilə təbrik edirəm.

Arzu edirəm ki, Novruz bayramı gəlişiylə hamınızın evinə bol ruzi-bərəkət gətirsin, sevinc bəxş etsin.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Müdafiə naziri şəxsi heyətlə iş üzrə komandir müavinləri ilə görüşüb



*Martın 15-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov birlik, birləşmə və hərbi hissə komandirlərinin və xüsusi təyinatlı təhsil müəssisələri rəislərinin şəxsi heyətlə iş üzrə müavinləri ilə görüşüb.*

Döyüş və mənəvi-psixoloji hazırlıq işinin hazırkı vəziyyəti ilə bağlı ətraflı təhlil aparan Müdafiə naziri bu istiqamətdə fəaliyyətlərin yüksək səviyyədə təşkili, hərbi qulluqçuların milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi, müasir silah və texnikanı dərindən bilmələri və bir çox məsələlərlə bağlı fikirlərini bölüşüb.

Silahlı Qüvvələrin qazandığı nailiyyətləri xüsusi qeyd edən nazir əldə olunan uğurların Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsi olduğunu vurğulayıb.

Sonda nazir döyüş və mənəvi-psixoloji hazırlıq işinin daim gücləndirilməsi, təhlükəsizlik qaydalarına əməl olunması və sayıqlığın artırılması, hərbi qulluqçular arasında fərdi tərbiyə işinin düzgün aparılması, qarşılıqlı münasibətlərin nizamnamələrin tələblərinə uyğun təşkil edilməsi və digər sahələrlə bağlı səylərin artırılması istiqamətində konkret tapşırıqlar verib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti,**
**foto**
**Natiq İSAYEVİNDİR**

# Bir qrup hərbi qulluqçuya növbəti "polkovnik" hərbi rütbəsi təqdim olunub



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, bir qrup zabitə növbəti "polkovnik" hərbi rütbəsi verilib. Hərbi qulluqçularla görüşən Müdafiə naziri onlara gələcək xidmətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini çatdırıb.*

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrdə görülən irimiqyaslı tədbirlərdən, dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən ardıcıl işlərdən danışıb.

Novruz bayramı münasibətilə hərbi qulluqçuları və onların ailə üzvlərini təbrik edən nazir vurğulayıb ki, dövlətin orduya göstərdiyi bu yüksək diqqətə cavab olaraq şəxsi heyət üzərinə düşən vəzifə borcunu vicdanla yerinə yetirməli, xalqın və dövlətin etimadını doğrultmaq üçün bütün tapşırıqların öhdəsindən layiqincə gəlməlidir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti,**
**foto**
**Natiq İSAYEVİNDİR**

# MDB iştirakçı dövlətlərin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin iclası keçirilib



Martın 15-də Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Moskvada keçirilən MDB-nin üzvü olan dövlətlərin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclasında iştirak edib.

Komitənin iclasında nümayəndə heyətlərinin rəhbərləri MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıblar.

İclas çərçivəsində "Suriya Ərəb Respublikasında keçirilən döyüş əməliyyatları nəticəsində qazanılmış təcrübələrə əsasən, terrorizmə qarşı mübarizənin hərbi aspektləri" mövzusunda konfrans da keçirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Qusarda Milli Qəhrəman Çingiz Qurbanovun 40 mərasimi keçirilib

*Martın 17-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə nazirliyin rəhbər heyəti Qusar rayonunda olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib.

Şəhidlər xiyabanında Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin, o cümlədən Milli Qəhrəman Çingiz Qurbanovun xatirəsi ehtiramla anılıb.

Sonra Qusar rayon mərkəzləşdirilmiş kitabxanası qarşısında Müdafiə Nazirliyinin nəşr etdirdiyi Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin "Çingiz dastanı" kitabının təqdimatı olub.

Mərasimdə çıxış edən Müdafiə naziri Zakir Həsənov, Qusar rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov, Milli Qəhrəmanın atası Salman Qurbanov və digərləri Çingiz Qurbanova, eləcə də ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərə verilən yüksək qiymət, onların ailələrinə göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan cənab İlham Əliyevə minnətdarlığını bildiriblər.



Kitabın ilk nüsxəsi Milli Qəhrəmanımızın atası S.Qurbanova təqdim olunub. Bundan əlavə, kitabın nüsxələri Qusar rayonunun bütün orta məktəblərinə və kənd kitabxanalarına da hədiyyə edilib.

Sonra Qusar rayon ictimaiyyətinin və hərbçilərin iştirakı ilə Milli Qəhrəmanımız Çingiz Qurbanovun 40 mərasimi keçirilib.

# "Çingiz dastanı" kitabının təqdimatı olub




*Martın 16-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsinə həsr edilmiş "Çingiz dastanı" kitabının təqdimatı olub.*

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev qısa müddətdə belə bir kitabın hazırlanıb çapdan çıxmasını şəhid qəhrəmanımızın xatirəsinə hörmət və ehtiramın təcəssümü kimi dəyərləndirib. Qeyd edib ki, ölkəmizdə Vətən uğrunda şəhid olan hər bir hərbi qulluqçunun adı əziz tutulur, onların xatirəsi əbədiləşdirilir, ailəsi isə dövlət səviyyəsində diqqət və qayğı ilə əhatə olunur. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu məsələyə xüsusi önəm verir.

Ötən il dekabrın 29-da Azərbaycan Respublikasının dövlət sərhədini pozmağa cəhd göstərən Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-pozuculuq fəaliyyətinin qarşısını alarkən baş vermiş döyüşdə şəhid olan Azərbaycan əsgəri Qurbanov Çingiz Salman oğlunun nəşi məhz dövlətimizin başçısının sayəsində qarşı tərəfdən alınıb və yüksək əsgəri ehtiramla, dövlət səviyyəsində keçirilən vida mərasimi ilə son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Qurbanov "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Onun adı Qusar şəhərində bir küçəyə və Həzrə kəndində vaxtilə təhsil aldığı tam orta məktəbə verilib. Ailəsi isə paytaxtda yeni mənzillə, rayonda isə ev inşa edilməsi üçün torpaq sahəsi ilə təmin olunub.

"Çingiz dastanı"nda 22 yaşlı qəhrəmanın qısa, lakin şərəfli ömür yolundan ətraflı bəhs edilir. Prezident İlham Əliyevin Çingiz Qurbanovun ailə üzvləri ilə görüşü, qəhrəmanın müəllimlərinin xatirələri və s. kitabda əksini tapıb. "Çingiz dastanı"nın hər bir əsgərin döyüş ruhunun, vətənpərvərlik hissinin yüksəlməsində, gənclərin qəhrəmanlıq ənənələri ruhunda tərbiyəsində mühüm rolu olacaq.

Kitabın müəllifi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani bu kitabın işıq üzü görməsində göstərdiyi köməyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə şəhid Milli Qəhrəmanın ailəsi adından, həm də müəllif kimi minnətdarlığını bildirib. Azərbaycan Prezidentinin




"Çingiz Qurbanov doğma torpağını müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur. Çingiz böyük qəhrəmanlıq, igidlik göstərmişdir. Düşmənlə üz-üzə qalaraq qeyri-bərabər döyüşdə bir daha düşmənə göstərdi ki, Azərbaycan əsgəri nəyə qadirdir. O, geri çəkilmədi, qorxmadı, baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə qalmışdı. Son nəfəsinə qədər vuruşmuş, bir neçə işğalçını məhv etmiş, şəhidlik zirvəsinə ucalmışdır", - sözlərini tədbir iştirakçılarına xatırladan A.Qurbani qəhrəmanın ölümü ilə qəhrəmanlığın ölmədiyini, əksinə, daim yaşadığını deyib. Çingiz Qurbanov 22 il ömür sürsə də, onun qəhrəmanlığı, xatirəsi əsrlər boyu yaşayacaq, yeni Çingizlər doğulacaq və xalqımız gələcəkdə də öz igid oğulları ilə fəxr edəcək.

Milli Məclisin deputatları Xanhüseyn Kazımlı və Məlahət İbrahimqızı müdrik və qətiyyətli Ali Baş Komandanımızın rəhbərliyi ilə ordu quruculuğu prosesinin geniş vüsət almasından, Azərbaycan Silahlı Qüvvələrinin regionun ən güclü ordularından biri olmasından və hər şeydən əvvəl Vətən əsgərinin mənəvi, fiziki, iradi keyfiyyətlərinin ən yüksək səviyyəyə çatmasından qürur hissi ilə danışıblar. Onlar bir neçə gün əvvəl cəbhə bölgələrində səfərləri zamanı bunun şahidi olduqlarını qeyd ediblər.



Məlahət İbrahimqızı bildirib ki, bu gün Azərbaycan Ordusunda Mübariz, Fərid, Çingiz kimi oğullarımız minlərlədir. "Onlar Ali Baş Komandanın əmrini gözləyirlər. "Çingiz dastanı" igid oğullarımızın şərəfinə yazılmış mükəmməl əsər kimi qiymətlidir. Əminik ki, bu kitab hər bir əsgərin, hər bir gəncin stolüstü kitabı olacaq."

Keçmiş birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov, ehtiyatda olan polkovnik Şair Ramaldanov bugünkü hərb tariximiz, qəhrəmanlarımız haqqında əsərlərin yazılmasının vacibliyini vurğulayaraq Novruz bayramı ərəfəsində "Çingiz dastanı"nın işıq üzü görməsinin həm şəhidin ailəsi, həm Vətən müdafiəçiləri, həm də qədirbilən xalqımız üçün böyük töhfə olduğunu deyiblər.

Milli Qəhrəmanın məzunu olduğu Azərbaycan Texniki Universitetinin prorektoru, professor İsa Xəlilov, onun dekanı və sevimli müəllimi, dosent Ramiz Hüseynov, tələbə Cabir Abasov şəhid qəhrəman haqqında xatirələrini bölüşüblər.

Azərbaycan Dövlət İqtisad Universitetinin inzibati işlər və təşkilati məsələlər üzrə prorektoru Şaiq Əsgərov, dekan Mirağa Əhmədov Azərbaycan əsgərinin qəhrəmanlığının dövlət səviyyəsində qiymətləndirilməsinə görə Prezident İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq edərək "Çingiz dastanı"nın təqdimatının universitetdə də keçiriləcəyini bildiriblər.

Ədəbiyyatşünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri professor Asif Rüstəmli Abdulla Qurbaninin yaradıcılığından və bu yeni əsərin aktuallığından bəhs edib. Professor belə əsərlərə gənclərin böyük ehtiyacı olduğunu qeyd edib.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, istefada olan polkovnik Həmid Səfərov və digər çıxış edənlər kitabın ərsəyə gəlməsində xidməti olanlara təşəkkürlərini bildiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Ordu həmkarlarının yubileyi

*Martın 16-da Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin 50 illik yubileyinə həsr edilmiş tədbir keçirildi.*

Bir gün öncə tədbir iştirakçıları I və II Fəxri xiyabanlara gedərək, ulu öndər Heydər Əliyevin və şəhidlərimizin məzarlarını ziyarət etdilər.

Yubiley mərasimini giriş sözü ilə açan BHİK-in sədri Abiyat Ağadadaşova qonaqları səmimi salamladı və qeyd etdi ki, sıralarında 14 mindən artıq mülki işçini birləşdirən təşkilat onların əmək, sosial-iqtisadi hüquqlarının müdafiəsini həyata keçirir. "Şanlı ordumuzda xidmət edən hər bir kəs bizim üçün doğma və əzizdir. Həmkarlar İttifaqı hər zaman ordumuzun yanında olub, hərbçilərin rahat və yüksək səviyyədə xidmət etmələri üçün çalışıb, onların uğurlarına sevinib.

Yaradıcısı ümummilli liderimiz Heydər Əliyev olan Silahlı Qüvvələrimizə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev daim diqqət və qayğı göstərir. Bu qayğı ordumuzun uğurları üçün çalışan həmkarlar təşkilatlarının hər bir üzvünü ruh yüksəkliyi ilə işləməyə sövq edir".



Tədbirdə iştirak edən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun yubiley münasibətilə ordu həmkarlarına təbrik məktubunu çatdırdı, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin hərbi hissələrdə, hərbi təşkilat və müəssisələrdə işgüzarlıqla çalışan çoxsaylı üzvlərinin Silahlı Qüvvələrimizin daha da güclənməsi üçün bilik və bacarıqlarını əsirgəmədiyini, ordu quruculuğuna layiqli töhfələr verdiyini vurğuladı.

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının sədri Hikmət Osmanov da çıxış edərək Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin kollektivini yubiley münasibətilə təbrik etdi. Natiq BHİK-in Silahlı Qüvvələrdə çalışan mülki işçilərin əmək hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyətini yüksək dəyərləndirdi və ordu həmkarlarına gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzuladı.

Yubiley mərasimində çıxış edən digər qonaqlar da təbriklərini çatdıraraq xoş arzularını bildirdilər.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin 50 illik yubileyinə həsr edilmiş maraqlı slayd nümayiş etdirildi.

Səmərəli fəaliyyətlərinə görə və yubiley münasibətilə həmkarlar təşkilatlarının bir qrup üzvü fəxri fərmanla mükafatlandırıldı.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi yubiley mərasimində maraqlı konsert proqramı ilə çıxış etdi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Qoşunların qarşıdurma xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 15-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Anjey Kasprşik, onun səhra köməkçiləri Jiri Aberle və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Xristo Xristov və Piter Şvedberq aparıblar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı çərçivəsində seminarlar keçirilib

Bakıda Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı (DEEP) çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının professor-müəllim heyətinin və NATO-ABŞ ekspert qrupunun iştirakı ilə "Strategiya və qüvvə planlaşdırılması" və "Əməliyyatların hazırlanması və planlaşdırılması" mövzularında seminarlar keçirilib.

Seminarlarda akademiyanın "Strateji araşdırmalar və dövlət müdafiəsini idarəetmə" kursunun professor-müəllim heyəti və dinləyiciləri ilə ekspert qrupu arasında milli təhlükəsizlik strategiyaları və qüvvələrin planlaşdırılması mövzuları ətrafında müzakirələr aparılıb. Mövzulara dair mühazirələr dinlənilib.

Akademiyanın rəisi general-leytenant Heydər Piriyevin rəhbərliyi ilə keçirilən seminarlarda bu ali hərbi təhsil ocağında və ABŞ Silahlı Qüvvələrinin Qərargah Kollecində əməliyyatların hazırlanması sahəsində brifinqlər təqdim olunub.

Sonda NATO-ABŞ ekspert qrupu ilə DEEP çərçivəsində bu günədək görülən işlər və gələcək planlar müzakirə edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***18 mart 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 115 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Şavarşavan, Voskevan, Barekamavan, Berdavan və Dovex kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Cəfərli, Bala Cəfərli, Fərəhli, Quşçu Ayrım, Qaymaqlı və Kəmərli kəndlərində, Berd rayonunun Çinari, Ayqedzor, Ayqepar, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu, Əlibəyli və Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Qaraqaşlı, Yusifcanlı, Baş Qərvənd, Cavahirli, Mərzili, Nəmirli, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# "Əsgərin vətənpərvər döyüşçü kimi formalaşması komandirdən asılıdır"



Vətənə olan sevgi insanın bu dünyada qazandığı ən böyük sərvətdir. Hər kəs bu sərvəti ilk öncə ailəsində, təhsil aldığı məktəblərdə və yaşadığı cəmiyyətdə qazanmağa başlayır. Vətənpərvər ruhda yetişdirilən hər bir gənc isə gələcəkdə ordu sıralarında nümunəvi xidməti ilə öz valideynlərinin başını uca edəcəkdir. Ümummilli liderimiz Heydər Əliyevin sözü ilə desək, "Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur."

Ordu sıralarında xidmətini başa vurub ehtiyata buraxılan əksər gənclərimizin ürəyindəki Vətən sevgisi bəzən də onun taleyini hərbi peşəyə bağlayır. Belə gənclərimizdən birini - ön xətdə xidmət edən leytenant Qadir Muradovu daha yaxından tanımaq və başqalarına da tanıtdırmaq üçün onunla həmsöhbət olduq.

Ali təhsildir. 2011-ci ildə Memarlıq və İnşaat Universitetini bitirib. Təhsilini başa vurduqdan sonra Naxçıvanda hərbi xidmətə - Vətənə övladlıq borcunu yerinə yetirməyə yollanıb. 2012-ci ildə ehtiyata buraxılıb və elə həmin il magistraturaya qəbul olunub. Magistraturanı bitirdikdən sonra bir müddət öz peşəsinə uyğun işləyib. Torpaqlarımızın işğalda qalması hamı kimi onu da narahat edirdi. Buna görə də yenidən ordu sıralarına qayıtmağı qərara alıb və bu barədə fikrini atası ilə bölüşüb. Akif kişi buna çox sevinib. Həta sənədlərinin hazırlanmasında oğluna köməklik göstərib.

Nəhayət, Qadir 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı" kursunu bitirib, "leytenant" rütbəsi ilə ön xəttə xidmətə yollanıb. Qadirin dediyinə görə, xidmətdə ilk günləri maraqlı və həyəcanlı keçib. Daşıdığı vəzifənin məqdəsliyini hiss edəndə isə qürur yaşayıb. Tabeliyindəki şəxsi heyətə tələbkarlıq və qayğı göstərən zabitin sözlərinə görə, hər bir insanın vətənpərvər gənc kimi yetişməsi valideynindən, ona dərs deyən müəllimlərindən asılıdırsa, əsgərin vətənpərvər döyüşçü kimi formalaşması onun komandirindən bilavasitə asılıdır. Döyüş və fiziki hazırlığı ilə yanaşı, əsgərlərin ruh yüksəkliyi də mühüm cəhətlərdəndir ki, bunları da onların təlim-tərbiyəsinə cavabdeh olan zabitlər aşılayır.

Bölük komandiri də onun haqqında razılıqla danışdı, şəxsi heyətlə mütəmadi söhbət apardığını, onların döyüş və mənəvi ruhunun artırılmasında əlindən gələni səfərbər etdiyini dedi.

Leytenant Qadir Muradov isə söhbətimizdə xidmət etdiyi bölmədə günün nizam qaydalarına ciddi riayət olunduğunu, əsgərlərlə ictimai-siyasi hazırlıq mövzusunda dərslərin yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Onun fikrincə, Vətəninə bağlı olan, xalqının, millətinin keçmişi ilə fəxr etməyi bacaran əsgər ən hazırlıqlı döyüşçüdür.

Məişət şəraiti yaxşı olduğundan hərbi hissədə asudə vaxt da səmərəli keçir. Əsgərlər belə vaxtlarda qəzet və jurnallar oxuyur, stolüstü oyunlar oynayır, bəzən bölmələrarası voleybol və futbol yarışlarında iştirak edirlər. Yarışlarda birinci olanlara hərbi hissə komandanlığı qiymətli hədiyyələr, fəxri fərmanlar təqdim edir. Leytenant Qadir Muradov əsgərlərin xidməti üçün yaradılmış nümunəvi şəraitə görə yuxarı komandanlığa öz minnətdarlığını bildirdi. Və bizi əmin etdi ki, Ali Baş Komandanımızın əmri ilə düşmən tapdağı altında olan torpaqlarımız azad edildikdən sonra bu cür yarışlar Qarabağımızda daha geniş miqyasda təşkil olunacaq.

"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, torpağa, millətə sədaqət, Vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir." Böyük öndərimizin bu fikri bütün ordumuzun şəxsi heyəti kimi, leytenant Qadir Muradovun da əsas fəaliyyət prinsipidir. Bu yolda gənc zabitə uğurlar arzulayırıq.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** 31 Mart - Azərbaycanlıların soyqırımı günüdür.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı haqqında əldə olan tarixi materiallardan, həmin hadisələrin şahidi olanların xatirələrindən istifadə etməli, eləcə də əvvəlki dərslərdə ermənilərin separatçı siyasəti haqqında öyrənilənləri dinləyicilərə bir daha xatırlatmalı və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

**1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti.**

**2. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri.**

**3. Ordumuz Ermənistanın separatçı-işğalçılıq siyasətinə son qoymalıdır.**

*Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti*

Azərbaycanlıların soyqırımı erməni faşizminin xalqımızın taleyinə həkk etdiyi qanlı salnamə, bütün türk dünyası və bəşəriyyət üçün tarixi ibrət dərsidir.

Türklərə və azərbaycanlılara qarşı ermənilərin mütəşəkkil şəkildə misli görünməmiş düşmənçilik siyasəti aparmasının və bunu bir millətin digər millət tərəfindən fiziki cəhətdən məhv edilməsi məqsədini daşıyan milli ideologiyaya və böyük fəaliyyət proqramına çevirməsinin dünya tarixində analoqu yoxdur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən törədilmiş soyqırımı da uzun müddət tarixin açılmamış səhifələrindən biri olmuşdur.

Xalqımıza qarşı törədilmiş bütün soyqırımı faciələrinə siyasi qiymət vermək məqsədilə ümummilli lider Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı imzalamışdı. Həmin fərmanla 31 mart azərbaycanlıların soyqırımı günü kimi tarixə yazılıb.

Bu mühüm sənəddə azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməyən vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımların tariximizdə ilk dəfə olaraq rəsmən adı çəkilir, xüsusilə 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə erməni millətçi, şovinist dairələri və onları dəstəkləyən dövlətlərin mürtəce qüvvələri tərəfindən bütün Cənubi Qafqaz miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış düşmənçilik siyasətinin əsl mahiyyəti açılır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakini olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarixi və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görən antiazərbaycan qüvvələrinin mənfur fəaliyyətinə siyasi qiymət verilir.

*Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri*

1813 və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının həmin milli faciəsinin davamı kimi onun torpaqlarının zəbt olunmasına başlanıldı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək, 10 minlərlə erməninin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Əhalinin fiziki cəhətdən məhv edilməsi isə Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. XX əsrin əvvəllərində "Daşnaksütyun" və "Hnçak" kimi erməni millətçi partiyalarının fəaliyyətə başlamasından və fanatik kütlələri qatı millətçi ideyalar ətrafında birləşdirməsindən sonra bu proses daha da sürətləndi.

Böyük Ermənistan yaratmaq xülyasından ruhlanan ermənilər 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.

Erməni terrorçu-quldur dəstələri Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlılara divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıq və vəhşiliklə öldürmüşlər. Həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi viran edilmişdir. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı öz doğma yurdyuvasını tərk etmək məcburiyyəti qarşısında qalmışdır.

Birinci Dünya müharibəsi zamanı (1914-1918) zəifləyən Rusiyada baş vermiş 1917-ci ilin fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz ideyalarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin martından etibarən "əksinqilabçı ünsürlərlə mübarizə" adı altında Stepan Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası tərəfindən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanıldı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edildi. Ermənilər evlərə od vurur, insanları diri-diri yandırır, milli memarlıq abidələrini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdırdılar.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilib.

Təkcə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə adamı öz yurd-yuvalarından didərgin salmışlar.

Yalnız Bakıda 18 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 min nəfərədək adam, o cümlədən 1653 qadın və 965 uşaq öldürülmüş, Quba qəzasının 122 müsəlman kəndi yerlə-yeksan edilmişdi. Qarabağın dağlıq hissəsində 750-dən çox, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə cinsinə və yaşına fərq qoyulmadan qəddarcasına divan tutulmuşdu. İrəvan quberniyasında 211, Qars vilayətində 22 azərbaycanlı kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi.

İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində və onun ətrafında 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdiyi vəhşiliklər və daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1920-ci ildə 70 min nəfərə enmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. 1919 və 1920-ci illərdə martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd olunmuşdur. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinə, XIX əsrdə və XX əsrin əvvəllərində torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Şovinist ruhlu erməni millətçilərinin azərbaycanlılara qarşı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymətin verilməməsi səbəbindən Sovet hakimiyyəti dövründə də azərbaycanlılar dəfələrlə onlara qarşı yeridilən antihumanist siyasətlə üzləşmişlər. Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların taleyi bu düşünülmüş millətçi siyasətin əyani təzahürüdür. Həmin siyasətin davamı olaraq, 1948-1953 və 1988-1989-cu illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1988-ci ildə yenidən baş qaldıran erməni separatizmi, ermənilərin Dağlıq Qarabağda apardığı işğalçı müharibə və etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlı soyqırımı qurbanlarının sayı daha da artmışdır. Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 4 mindən çox azərbaycanlı əsir və itkin düşmüş, girov götürülmüş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçası, 250 xəstəxana və tibb müəssisəsi dağıdılmış, azərbaycanlıların yaşadıqları 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Bütün bunların nəticəsində təkcə XX əsrdə 2 milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri qanlı terror və soyqırımı siyasətinin təsirinə məruz qalmışdır. Deməli olar ki, indi Azərbaycanda erməni millətçilərinin zülmündən bu və ya başqa şəkildə zərər çəkməyən ailə yoxdur.

*Ordumuz Ermənistanın separatçı-işğalçılıq siyasətinə son qoymalıdır*

Dünyada misli görünməmiş qanlı üsullarla zaman-zaman Azərbaycan xalqına qarşı çoxəsrlik tarixə malik düşmənçiliklərindən əl çəkməyən ermənilər yaranmış tarixi şəraitdən sui-istifadə edərək, xalqımızın başına min bir müsibətlər gətirmiş, torpaqlarımızın 20 faizdən çoxunu işğal etmişlər. Bu gün tək Azərbaycan üçün deyil, həm də regionumuz üçün təhlükə mənbəyinə çevrilmiş Ermənistan bir tərəfdən öz işğalçılıq siyasətinə haqq qazandıraraq, zəbt etdiyi Azərbaycan torpaqları üçün separatçı-şovinist status əldə etmək istəyir, hələ bu azmış kimi Naxçıvan məsələsini də ortaya atır. Digər tərəfdən isə özlərinin "əzabkeş xalq" olduqlarını dünyaya car çəkir, "genosid qurbanı" olduqlarını təsdiq elətdirmək üçün dəridən-qabıqdan çıxır, dünya ictimaiyyətini aldadaraq, tarixi saxtalaşdırırlar. Lakin ermənilər Azərbaycan Ordusunun gücünə yaxşı bələddirlər və onlar çox gözəl bilirlər ki, bu ordu daha əvvəlki ordu deyil. Bu, 1994-cü ilin uğurlu, qələbə soraqlı döyüş günlərini yaşamış, həmçinin 2016-cı ilin aprelində öz gücünü təsdiqləmiş möhkəmlənmiş, qüdrətli və nizamlı bir ordudur.

Azərbaycan əsgəri yaxşı bilməlidir ki, ermənilərin apardığı ikiüzlü və riyakar siyasət heç bir nəticə verməyəcək, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan Respublikasının Silahlı Qüvvələrin Ali Baş Komandanı olduğu illərdə formalaşan və inkişaf edən Azərbaycan Ordusu bu gün düşmənin layiqli cavabını verəcək və işğal olunmuş torpaqlarımız azad ediləcəkdir.

Ümummilli Liderimizin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar dövlətimizin siyasətini belə bəyan etmişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmasının və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Torpaqlarının 20 faizdən çoxunu itirmiş, soydaşlarının bir milyondan artığı qaçqın düşmüş, minlərlə şəhid vermiş Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən hər bir hərbi qulluqçu Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün öz döyüş və mənəvi-psixoloji hazırlığını daim artırmalı, hərbi intizamın möhkəmləndirilməsinə çalışmalı, Vətən sevgisini hər şeydən üstün tutmalı, yurdumuzu düşmən təcavüzündən azad etmək üçün daim döyüşə atılmağa hazır olmalıdır. Bunu bizdən erməni işğalçıları ilə qanlı-qadalı döyüşlərdə şəhid olmuş qəhrəman oğulların ruhu tələb edir.

Aprel döyüşləri bir daha onu görsətdi ki, Azərbaycan ordusu istənilən zaman öz torpaqlarını azad etməyə qadirdir və Azərbaycan əsgəri Vətəninin ərazi bütövlüyünü bərpa etməyə hər an hazırdır.

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

# Müdafiə Nazirliyinin və Respublika Hərbi Prokurorluğunun nümayəndələri hərbi hissələrdə olublar





*Müdafiə Nazirliyinin və Respublika Hərbi Prokurorluğunun 2017-ci ilə dair birgə tədbirlər planına əsasən, hər iki qurumun məsul əməkdaşları Novruz bayramı ərəfəsində cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar.*

Onlar birlik, birləşmə və hərbi hissələrdə müxtəlif kateqoriyalardan olan hərbi qulluqçular, o cümlədən bilavasitə ön xətdə yerləşən hərbi hissələrin şəxsi heyəti ilə görüşlər keçiriblər.

Yerli icra strukturları, ictimaiyyətin nümayəndələri, rayon fəalları, veteranlar və valideynlərin də iştirakı ilə keçirilən tədbirlər şəxsi heyətə bayram sovqatlarının çatdırılması və konsert proqramları ilə yekunlaşıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “Yurdumuza Bahar gəlir”

## Bədii özfəaliyyət baxış müsabiqəsi

*Təbiətin dəyişməsi həmişə insana könül xoşluğu verir. Ağaclar tumurcuqlayır - ümiddi, tumurcuqlar yarpaqlaşır - ümiddi, hər yan yaşıllaşır - ümiddi. İnsanlar təbiətin bu şəkildə dəyişməsində arzularını, istəklərini görürlər. İlkin yazda Silahlı Qüvvələrimizdə mənəvi hazırlıq istiqamətində keçirilən tədbirlərin mahiyyəti də təbiətin dəyişkənliyini hərbi qulluqçuların duyğularına köçürməkdir. Bədii özfəaliyyət yaradıcılıqdır. Hərbçilərin yaradıcılıq qabiliyyətini aşkarlamaq, dəyərləndirmək, istiqamətləndirmək səmərəli olur. "Yurdumuza Bahar gəlir" bədii özfəaliyyət baxış müsabiqəsi bunun nəticəsidir...*




Martın 14-də Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin dəstəyi ilə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Novruz bayramına həsr olunmuş "Yurdumuza Bahar gəlir" adlı bədii özfəaliyyət baxış müsabiqəsinə start verilib.

Hərbi qulluqçuların yaradıcılıq qabiliyyətinin üzə çıxarılması, milli-mənəvi dəyərlərin təbliği, hərbi hissələrdə bədii özfəaliyyət kollektivlərinin yaradılması, hərbi vətənpərvərlik ruhunun aşılanması məqsədilə keçirilən müsabiqədə Bakı Qarnizonu hərbi hissələrindəki hərbi qulluqçular və onların ailə üzvləri iştirak ediblər. Seçim turunda iştirakçıların çıxışlarını qiymətləndirmək məqsədilə Mərkəzi Zabitlər Evinin mədəni-kütləvi iş bölməsinin müdiri Gülxar Məmmədovanın rəhbərlik etdiyi 6 nəfərlik münsiflər heyəti təşkil olunub. Münsiflər heyəti Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin nümayəndələrindən ibarətdir.



Müsabiqəni açıq elan edən Mərkəzi Zabitlər Evinin rəisi polkovnik Rəşad Abuzərov ürəklərdə saf niyyətlər, xoş arzular yaradan Novruz bayramının Azərbaycanda milli bayram kimi hər il yüksək səviyyədə qeyd olunduğunu vurğulayıb.

"Novruz bayramı xalqın müqəddəs etiqadına söykənməklə, özündə böyük bədii-estetik, mifik, mənəvi-əxlaqi, ülvi və dünyəvi duyğuları təcəssüm etdirir. Ümummilli lider Heydər Əliyevin vurğuladığı kimi, xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran Novruz bayramı Azərbaycan xalqının ən əziz və sevimli bayramlarından biridir. Əsrlər boyu xalqımız bu bayramı ən yüksək ovqatla qeyd edib. Milli-mənəvi dəyərlərimizi, mədəniyyətimizi özündə birləşdirən Novruz bayramı bizim üçün ən başlıca, ən gözəl bayramdır" - deyən zabit R.Abuzərov tədbir iştirakçılarını qarşıdan gələn bayram münasibəti ilə təbrik edərək, onlara cansağlığı, xoşbəxtlik və ailə səadəti arzulayıb.



Çıxış etmək üçün sıra ilə səhnəyə çıxan hərbi qulluqçular 4 naminasiya (bədii qiraət, rəqs, ifaçılıq, musiqi alətlərində ifa) üzrə bacarıqlarını nümayiş etdiriblər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Sənan Quliyevin ulu öndər Heydər Əliyevə həsr etdiyi "Dahilik zirvəsi" şeiri, digər kursantların ifa etdikləri "Şəhid arzuları", "Azərbaycan", "Torpağın səsi" mahnıları, qadın hərbi qulluqçunun nümayiş etdirdiyi milli rəqs yaddaqalan olub. Digər hərbi qulluqçular da özünəxas çıxışları ilə yarımfinal mərhələsinə iştirak hüququ qazanıblar.

* * *

Martın 17-də 3 gün (seçim turu, yarımfinal və final) davam edən "Yurdumuza Bahar gəlir" adlı bədii özfəaliyyət baxış müsabiqəsinin bağlanış mərasimi keçirilib. Tədbirdə qaliblər elan olunub və mükafatlandırılıb. Müxtəlif naminasiyalar üzrə 1-ci, 2-ci və 3-cü yerləri tutan 17 hərbi qulluqçu Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin rəisi polkovnik Rəşad Abuzərov tərəfindən diplom və qiymətli hədiyyələrlə təltif olunublar. Hərbi qulluqçulardan Gülnarə Məmmədova, Fərhad Əkbərov, Yusif Məmmədov, AAHM-in kursantı Əliviz Quliyev və Hərbi Dəniz Qüvvələrinin matrosu Vahid Nuriyev 1-ci yerə layiq görülüblər.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

## “Dəniz Kuboku-2017” beynəlxalq müsabiqəsinin işçi görüşünün protokolu imzalanıb

Martın 17-də Hərbi Dəniz Qüvvələrinin qərargahında Azərbaycan, Rusiya və Qazaxıstan nümayəndə heyətlərinin rəhbərlərinin iştirakı ilə cari ilin avqustunda ölkəmizin ərazi sularında keçirilməsi planlaşdırılan "Dəniz kuboku-2017" beynəlxalq müsabiqəsinin işçi görüşünün yekununa dair birgə protokol imzalanıb.

Sənəddə yarışlarda iştirak edəcək ölkələrin suüstü gəmilərinin heyətləri arasında dəniz vərdişləri üzrə müsabiqənin keyfiyyətli təşkili və keçirilməsi məsələləri əks olunub.

Protokolda müsabiqənin təşkil olunacağı yerə baxışın keçirilməsi, maddi-tədris bazasının hazırlanması, iştirakçıların, o cümlədən müxtəlif nümayəndələrin qarşılanması, yerləşdirilməsi, təminatı və yola salınması, həmçinin bir sıra digər məsələlər nəzərdə tutulur.

## Hərbi dənizçilərlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nümayəndələrinin görüşü keçirilib



*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında imzalanan 2017-ci il üçün birgə tədbirlər planına əsasən, Hərbi Dəniz Qüvvələrində görüş keçirilib.*

Tədbirdə HDQ-nin şəxsi heyətlə iş üzrə müavini 1-ci dərəcəli kapitan Natiq Bağırov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Əliheydər Zülfüqarov milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə mövzularında çıxış ediblər.

Sonda bu kimi tədbirlərin dini radikalizmə qarşı mübarizə istiqamətində müsbət təsir göstərəcəyinə əminlik ifadə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Xəbərlər: hadisələr, faktlar

### İspan polisi son bir ildə 194 terrorçunu zərərsizləşdirib



İspan polisi Arbukis kəndində terrorizmdə şübhəli bilinən 43 yaşlı mərakeşlini həbs edib. Həbs olunan şəxs İŞİD terror qruplaşmasına maliyyə dəstəyinin ötürülməsində ittiham olunur. Bu barədə xəbəri İspaniyanın Daxili İşlər Nazirliyi yayıb. Tədqiqat işlərinə ötən ilin əvvəlindən başlanılıb. Əməliyyat İspaniya Mərkəzi Məhkəməsi və Baş Prokurorluğun Avropa ilə birgə əməkdaşlığı nəticəsində həyata keçirilib. Bu dövr ərzində İspaniyada İŞİD-lə əlaqəsi olan 194 nəfər həbs olunub. Tutulan şəxslər əsasən terrorçulara maliyyə yardımı göstərməkdə, həmçinin yeni üzvlərin cəlb olunmasında günahlandırılır.

### Cənubi sudanlı yaraqlılar Efiopiyada 28 nəfəri qətlə yetirib



Cənubi Sudandan olan yaraqlılar Efiopiya ərazisinə daxil olaraq 28 nəfəri qətlə yetirib və 43 uşağı oğurlayıblar.

Efiopiyanın hökumət orqanlarının məlumatına əsasən, hadisə Cənubi Sudanın Boma regionu ilə sərhəddə yerləşən Qambela və Cor vilayətlərində qeydə alınıb. Onların iddiasına görə, hücumu murle xalqının nümayəndələri həyata keçirib. Nilot etnik qrupuna mənsub murle xalqı Cənubi Sudanda və Efiopiyanın bu ölkə ilə sərhəd rayonlarında məskunlaşıb. Bu xalqın nümayəndələri nuer adlı digər etnik qrupla düşmənçilik münasibətindədir. Hər iki xalqın silahlı dəstələri mütəmadi olaraq biri-birinin kəndlərinə hücum edərək qətllər törədir, insanları və mal-qaranı oğurlayır.

### Bolqarıstanda “Frakiya baharı - 2017” adlı hərbi təlimlər keçirilir



Bolqarıstanın Plovdiv rayonu yaxınlığında "Frakiya baharı-2017" adlı bolqar-amerikan hərbi təlimləri keçirilir.

Təlimlərdə Bolqarıstan ordusu, Daxili İşlər Nazirliyi, ABŞ-ın Avropada hərbi hava qüvvələri iştirak edirlər. Tədbirlər çərçivəsində "Spartan" və "Herkules" təyyarələrindən paraşütlə tullanmaq, gecə təlimləri, taktiki uçuşlar, məhsulların daşınması, humanitar yardımın çatdırılması kimi tapşırıqların yerinə yetirilməsi nəzərdə tutulub.

### Çində 136 yeni aeroport inşa ediləcək



Çin hökuməti 2025-ci ilədək ölkədə 136 yeni mülki aeroport inşa etməyi planlaşdırır.

Sinxua agentliyi Çin Milli İnkişaf və İslahatlar Komissiyasına istinadla yazır ki, yeni aeroportların bəziləri beynəlxalq, digərləri isə yerli statuslu olacaqdır. Hazırda istifadədə olan 207 mülki aeroport sərnişin tələbatını ödəmir. Bundan başqa, mövcud aeroportlar ölkənin bütün ərazisini əhatə etmir. Statistikaya görə, Çindəki aeroportlar ildə 900 milyondan çox sərnişinə xidmət göstərir. Bu rəqəmin 2020-ci ildə 1,5 milyarda, 2025-ci ildə isə 2,2 milyard nəfərə çatacağı gözlənilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Ordu və cəmiyyət*

# Dönməz ümid

Oğullar böyüyür, Vətən! Oğulların böyüyür. Hələ uşaqlığını yaşayan oğullar yeniyetmələşir, yeniyetmələr gəncləşir. Ruhuna Vətən sevgisi hopa-hopa böyüyür. Həm də düşüncələri könül xoşluğuna dönməklə böyüyür.

Dağlıq Qarabağda döyüşlər gedəndə əli silah tutanların hamısı döyüşçüydü, hamı torpaqların müdafiəsindəydi. O illərdə Ümid yaşlı uşaqlar da döyüşürdü. Silah ata bilməsələr də döyüşürdülər; döyüşənlərin yanındaydılar...

Ümid nə arzulayır? - torpaqlarımızın işğaldan azad edilməsini. Şagird olaraq qalib əsgərlərlə Şuşada, Cıdır düzündə görüşməyi, onlara orada


Salam. Mən Əliyev Ümid. Ordakı bütün əsgərləri salamlayıram. 5-ci sinifdə oxuduğuma baxmayaraq, mən əsgərliyə əsgərə getməyi çox istəyirəm. Bir neçə həftə əvvəl şəhidlərimiz oldu. Bunu televizordan eşidəndə çox pis oldum. Mənim sizələrə bir istəyim var ki, şəhidlərimizin qanlarını yerdə qoymayın və hər birinizə güc, qüvvə və şans diləyirəm

(Ə. Ümid)

"sağ olun!" - deməyi, evlərinə dönüşündə qalib əsgərlərə daha əhatəli məktub yazmağı...

Ordu cəmiyyətin bir hissəsidir. Cəmiyyətin məktəbliləri də ordumuza inanır, güvənir. Bu, bizi də qürurlandırır. Ümidlər Mübarizləşəcək. İşğaldan azad edilmiş torpaqlarımızı Mübarizləşmiş oğullar müdafiə edəcək.

Ümidlər Vətənin də ümididir...

Ümidlər Azərbaycan əsgərinin qüdrətinə inanır. İnanır ki, sülh danışıqları baş tutmasa, Azərbaycan əsgəri torpaqlarımızı işğaldan döyüşlə xilas edəcək. Bu inam hamımızın inamıdır.

Ümidlər ümidlə böyüyür. Bu ümid dönməz ümiddi...

**"Azərbaycan Ordusu"**

Biləsuvar rayonu, Mübariz İbrahimov küçəsi,
5-ci sinif şagirdi Əliyev Ümid Elşən oğluna

*Salam, dəyərli Ümid!*

*Əsgərlərimizə yazdığın məktubunu aldıq.*

*İlk olaraq sənin kimi vətənpərvər yeniyetmə böyüdüb, tərbiyə etdiklərinə görə, valideynlərinə və təhsil aldığın məktəbin kollektivinə minnətdarlığımızı bildiririk. Biz hərbçilər sənin kimi vətənsevər, əsgərlərimizə böyük hörmətlə, şəhidlərimizə ehtiramla yanaşan insanlarla fəxr edirik.*

*Yazdığın məktub bizi qürurlandırdı. Bu məktuba görə sənə "Çox sağ ol" deyirik. Əmin ola bilərsən ki, əsgərlərimiz döyüş mövqelərində daim ayıq-sayıq dayanır, Vətənə layiqincə xidmət edirlər. Şəhidlərimizin qisası isə artıqlaması ilə alınır və bundan sonra da alınacaq.*

*Balaca qardaşımız, Ümid!*

*Sən hələ yeniyetməsən, məktəblisən. Bu gün sənin qarşında duran ən böyük vəzifə, yaxınlarının, müəllimlərinin köməyi ilə təhsilini uğurla davam etdirmək, öz üzərində çalışmaq, böyüyərək valideynlərin üçün yaxşı övlad, Vətən üçün layiqli vətəndaş olmaqdır. Bir gün hərbi xidmətə yollanaraq Vətənə layiqli əsgər olacağına biz də inanırıq və buna əminik. Çünki sən Mübariz İbrahimov kimi igid, cəsur və qorxmaz bir Vətən oğlunun, Milli Qəhrəmanın həmyerlisisən, onun adını daşıyan küçədə yaşayırsan. Ümidvarıq ki, sən də savadlı, peşəkar, cəsur və igid bir hərbçi olacaqsan.*

*Vətənimizin ümidi və gələcəyi sənin kimi saf, mənəviyyatlı, qəlbi Vətən sevgisi ilə döyünən, savadlı, bacarıqlı gənclərədir. Sənin belə kiçik yaşda əsgərlərimizə bu məzmunda səmimi məktub yazmağın dediklərimizin təsdiqidir.*

*Səni, ailə üzvlərini və təhsil aldığın məktəbin kollektivini Novruz bayramı münasibətilə təbrik edir, sənə təhsildə, arzularının həyata keçməsi, gələcəkdə gözəl övlad, layiqli vətəndaş olmağın istiqamətində atacağın bütün addımlarında uğurlar arzulayırıq!*

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

**Məsul katib** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 99
Nüsxə 4650